# Bir ata övladından el oğluna döndülər

## Şəhidlər İntiqam və Nurlan Əsgərli qardaşlarının məzarları Masallı gənclərinin and yeridir




**Vətənimizin başı üstünü qara buludlar alanda ölkəmizin hər yerində olduğu kimi, Masallının da cəsur oğulları onun müdafiəsinə qalxdılar. Birinci Qarabağ müharibəsi zamanı mənfur erməni separatçılarını torpaqlarımızdan qovub çıxarmaq üçün rayondan 620 nəfər cəbhəyə yollandı və onlardan 186 nəfəri şəhid oldu, 188 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri aldılar.**

Bu Vətən sevgisinə, bu qəhrəmanlığa baxmayaraq, müstəqilliyimizin ilk illəri respublikamızda yaranan hərc-mərclikdən, başıpozuqluqdan istifadə edən ermənilər havadarlarının yaxından köməyi ilə torpaqlarımızın 20 faizini işğal etdilər. Bir milyondan çox soydaşımız öz dədə-baba yurd-yuvasından qovuldu, ermənilər işğal etdikləri şəhər və kəndlərimizi, mədəni, tarixi, dini abidələrimizi dağıdıb viran qoydular, təbii sərvətlərimizi quldurcasına daşıyıb apardılar.

Amma xalqımız qisas gününün yetişəcəyinə inanırdı və nəhayət, həmin gün gəlib çatdı. 27 sentyabr 2020-ci ildə Azərbaycan Ordusu əks-hücumla həmlə etdi. Hamı bir nəfər kimi Vətənin müdafiəsinə qalxdı.

Masallının gəncləri də Qarabağı azad edənlər sırasında idi. 1364 nəfər düşmənlə ölüm-dirim döyüşünə atıldı. Rayondan cəbhəyə yollanan gənclərdən 61 nəfəri şəhidlik zirvəsinə yüksəldi, 70 nəfər qazi oldu. 19-20 sentyabr 2023-cü il tarixdə ordumuzun keçirdiyi antiterror əməliyyatında isə bu torpağın 8 gənci öz canından keçdi. Ölərək ölməzlik zirvəsinə ucalan şəhidlərimiz haqqındakı bir şeirimdə yazmışam:

*Siz ey Vətən yolunda şirin canından keçib,*
*İgidliyi, mərdliyi özünə amal seçib,*
*Ömrün bahar çağında həyatdan erkən köçüb*
*Ölümüylə bu yurdu, torpağı yaşadanlar,*
*Yaşayan hər ömürdə canınız, qanınız var.*

*Səs verdiniz Vətənin harayına, səsinə,*
*Yüksəldiniz müqəddəs şəhidlik zirvəsinə.*
*Məzarınız dönübdür ziyarət türbəsinə.*
*Sizinlə qürur duyur bu gün hər ev, hər ocaq,*
*Xatirəniz, ruhunuz həmişə anılacaq.*

Masallı şəhidlərinin 2-si qardaşdır. Onlar rayonun Viləş kəndində dünyaya göz açmış, burada boya-başa çatmışlar. Böyük qardaş İntiqam Əsgərli 16 avqust 1990-cı ildə anadan olub. 2008-ci ildə şəhid S.Hüseynov adına Viləş tam orta məktəbini bitirib, orduda xidməti başa vurduqdan sonra 2011-ci ildə Quru Qoşunlarının gizirlik kursuna daxil olub, kursu başa vurduqdan sonra Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmətə başlayıb. Bacarığını nəzərə alaraq hərbi vərdişlərini artırmaq üçün onu Türkiyəyə göndəriblər. 2015-ci ildə Vətənə qayıdan İntiqam Əsgərli 2020-ci il sentyabrın 27-də döyüşə atılıb, torpaqlarımızın azad olunmasında igidliklər göstərib. O, noyabrın 9-da Şuşada şəhid olub. Ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına, həmçinin "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medallarına layiq görülüb.

Şəhidin 2 övladı var - qızı Nur, ölümündən sonra dünyaya gələn və atasının adını daşıyan oğlu İntiqam. Bu gün qəhrəman şəhidin yadigarları və ailəsi hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Şəhid İntiqam Əsgərlinin atası Bayram kişi deyir ki, İntiqama qardaşı Nurlanın 2016-cı ilin Aprel döyüşlərində şəhid olması çox ağır təsir etmişdi. Qəzəbi yerə-göyə sığmırdı. Boks, cüdo üzrə respublika çempionatlarında iştirak edərək 1-ci yer tutan qardaşının ölümü ilə barışa bilmirdi.

Nurlan Əsgərli də nümunəvi, döyüşkən əsgər idi. O, həqiqi hərbi xidmətini başa vurduqdan sonra xidmət etdiyi hissənin komandanlığına ərizə ilə müraciət edərək çavuş kimi xidmətini davam etdirirdi. Onun da igidliyi dövlət tərəfindən layiqincə qiymətləndirilib. Prezidentin sərəncamı ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.

Bu gün rayonun Viləş kənd qəbiristanlığında iki şəhid qardaşın məzarları var. Kənd əhalisi, rayon ictimaiyyəti, məktəblilər hər il onların doğum və ölüm günlərində bura toplaşıb, igid qardaşların xatirələrini yad edirlər. Bəli, şəhidlər ölmür, onlar əbədiyyətə qovuşaraq yüz illər, min illər boyu xalqın, millətin yaddaşında yaşayırlar.

*Bir ata övladından el oğluna döndünüz.*
*Kim deyir ki, öldünüz, kim deyir ki, söndünüz?!*
*Gələcək nəsillərə yetişəcək ününüz.*
*Siz bu gün də, sabah da - əsrlərlə sağsınız,*
*Bu yurdun sinəsində vüqarsınız, dağsınız!*

**Seyran CAVADOV,**
**"Azərbaycan"**

Azərbaycan.- 2025.- 4 may (№90).- S.10.